# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİL SİSTEMİNDƏKİ İSLAHATLAR

**Vüsalə Əlləzova**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*"Əliyevşünaslıq" şöbəsinin elmi işçisi*
*vallazova@mail.ru*

## NATIONAL LEADER HAYDER ALIYEV AND AZERBAIJAN REFORMS IN THE EDUCATION SYSTEM

**Vusale Allizova**

**Summary**

During the 32 years since the restoration of state independence, the Republic of Azerbaijan has become one of the rapidly developing countries in the world, which has achieved great achievements in the economic and social spheres. Economic reforms implemented in the republic, legal and democratic state building, development of foreign relations based on reliable partnership and cooperation are undoubtedly indicators of the great success of Azerbaijan's state strategy. At the same time, it should be noted that the intellectual capital of the country and the education system closely related to it play a major role in the foundation of these successes. Today, the education system in Azerbaijan is a state policy that is subordinated to a special strategy and preserves previous traditions and practices. The correct construction of this strategy plays the role of a basis for the continuation of those traditions on a scientific basis in the later stages, and at the same time for adapting them according to modern requirements.

**Key words:** education, reform, decision, teaching, personnel policy.

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİL SİSTEMİNDƏKİ İSLAHATLAR

**Vüsalə Əlləzova**

**Xülasə**

Dövlət müstəqilliyinin bərpasından keçən 32 il ərzində Azərbaycan Respublikası dünyanın sürətlə inkişaf edən, iqtisadi və sosial sahələrdə böyük naliyyətlər əldə etmiş ölkələrindən birinə çevrilmişdir. Respublikada həyata keçirilən iqtisadi islahatlar, hüquqi və demokratik dövlət quruculuğu, etibarlı tərəfdaşlığa və əməkdaşlığa əsaslanan xarici əlaqələrin inkişafı, heç şübhəsiz, Azərbaycanın dövlət strategiyasının böyük uğurunun göstəriciləridir. Eyni zamanda qeyd etmək lazımdır ki, bu uğurların təməlində ölkənin intellektual kapitalı və onunla sıx bağlı olan təhsil sisteminin də böyük yeri vardır. Bu gün Azərbaycanda təhsil sistemi xüsusi strategiyaya tabe etdilmiş, əvvəlki ənənələrin və təcrübələrin də qorunduğu bir dövlət siyasətidir. Bu strategiyanın düzgün qurulması sonrakı mərhələlərdə həmin ənənələrin elmi əsaslarla davam etdirilməsi, eyni zamanda müasir tələblərə görə uyğunlaşdırılması üçün bir əsas rolunu oynayır.

**Açar sözlər:** təhsil, islahat, qərar, tədris, kadr siyasəti.

## НАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И РЕФОРМЫ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

**Вусаля Аллизова**

**Аннотация**

За 32 года после восстановления государственной независимости Азербайджанская Республика стала одной из быстро развивающихся стран мира, добившейся больших достижений в экономической и социальной сферах. Реализуемые в республике экономические ре-

формы, правовое и демократическое государственное строительство, развитие внешних связей, основанных на надежном партнерстве и сотрудничестве, несомненно, являются показателями большого успеха государственной стратегии Азербайджана. При этом следует отметить, что важную роль в фундаменте этих успехов играет интеллектуальный капитал страны и тесно связанная с ним система образования. Сегодня система образования в Азербайджане представляет собой государственную политику, подчиненную особой стратегии и сохраняющую прежние традиции и практику. Правильное построение этой стратегии играет роль основы для продолжения этих традиций на научной основе на последующих этапах и в то же время для адаптации их к современным требованиям.

**Ключевые слова:** образование, реформа, решение, обучение, кадровая политик

**Giriş.** Dövlət müstəqilliyinin bərpasından keçən 32 il ərzində Azərbaycan Respublikası dünyanın sürətlə inkişaf edən, iqtisadi və sosial sahələrdə böyük naliyyətlər əldə etmiş ölkələrindən birinə çevrilmişdir. Respublikada həyata keçirilən iqtisadi islahatlar, hüquqi və demokratik dövlət quruculuğu, etibarlı tərəfdaşlığa və əməkdaşlığa əsaslanan xarici əlaqələrin inkişafı, heç şübhəsiz, Azərbaycanın dövlət strategiyasının böyük uğurunun göstəriciləridir. Eyni zamanda qeyd etmək lazımdır ki, bu uğurların təməlində ölkənin intellektual kapitalı və onunla sıx bağlı olan təhsil sisteminin də böyük yeri vardır. Bu gün Azərbaycanda təhsil sistemi xüsusi strategiyaya tabe etdilmiş, əvvəlki ənənələrin və təcrübələrin də qorunduğu bir dövlət siyasətidir. Bu strategiyanın düzgün qurulması sonrakı mərhələlərdə həmin ənənələrin elmi əsaslarla davam etdirilməsi, eyni zamanda müasir tələblərə görə uyğunlaşdırılması üçün bir əsas rolunu oynayır.

Azərbaycan təhsilinin himayədarı kimi çıxış edən Ulu Öndər azərbaycanlı gənclərin vətənpərvər ruhda tərbiyəsinə və Vətənə layiqli kadrlar kimi yetişməsinə böyük önəm verirdi. Müstəqillik yoluna qədəm qoymuş Azərbaycan üçün isə təhsil sahəsinin Azərbaycanın sonrakı inkişafı üçün böyük strateji əhəmiyyət kəsb etdiyini xüsusi vurğulayan

1990-cı illərin əvvəllərində təhsil sahəsində məzmun islahatlarının hazırlanıb həyata keçirilməsi isə böyük problemlərlə qarşılaşmışdı. Belə ki, müvafiq sahədə maddi-texniki təchizatın aşağı səviyyəsi, kadr çatışmazlığı, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış sosial və iqtisadi problemlər, o cümlədən böyük sayda şagird və pedaqoji kadrın məcburi köçkün və qaçqın vəziyyətində olması bir tərəfdən, islahatların sürətlə həyata keçirilməsini tələb edirdi, digər tərəfdən, bu islahatlar üçün ciddi hazırlıqları zəruri edirdi. Bu problemlərin həlli üçün respublikada siyasi sabitliyin bərpası, hüquqi dövlətçiliyin qurulması, vətəndaş həmrəyliyinə nail olunması, iqtisadi və sosial problemlərin mərhələli bir şəkildə həll edilməsi lazım idi.

Təhsil sahəsində islahat Proqramının əsas məqsədi "məktəbəqədər, orta, ali, ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ-hüquqi bazanı yaratmaq, cəmiyyətin Azərbaycan Respublikasının Konstitusiyasında, Təhsil Qanununda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatın demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirmək" olaraq göstərilmişdir [7]. Proqramda respublikada təhsil sistemində islahatların üç mərhələdə aparılması nəzərdə tutulurdu: Bir il müddətini əhatə edən birinci mərhələ - hazırlıq mərhələsi (1999-cu il) Azərbaycan Respublikası vətəndaşlarının Konstitusiyada müəyyən olunmuş təhsil almaq hüququnu təmin edən, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təhsil sisteminin normativ hüquqi, iqtisadi və informasiya bazasını yaratmaq üçün təşkilati işlərin aparılmasını, eləcə də onun infrastrukturu və kommunikasiya sisteminin müəyyən edilməsini nəzərdə tuturdu. Qısa müddətli perspektivi əhatə edən ikinci mərhələdə (2000-2003-cü illər) təhsil sahəsinin sosial-iqtisadi stabilliyini təmin edən təxirəsalınmaz problemlərin həll olunması və geniş miqyaslı islahatın aparılması üçün təşkilati-hüquqi, kadr, maliyyə, maddi-texniki təminatının və yeni idarəetmə modelinin yaradılması nəzərdə tutulurdu. Üçüncü mərhələ (2004-cü ildən) proqramda nəzərdə tutulan bütün tədbirlərin həyata keçirilməsini əhatə edirdi [7].

1999-cu il Təhsil İslahatı Proqramının başlıca istiqamətləri isə aşağıdakı kimi müəyyən edilirdi:

- müasir tələblərə cavab verən istedadlı uşaqlar üçün təhsil müəssisəsindən tutmuş, inkişafında

qüsur olan, reabilitasiyaya ehtiyacı olan uşaqlar üçün yaradılmış yeni tipli təhsil müəssisələri şəbəkəsinin yaradılması. Bütün tipdən olan təhsil müəssisələrinin diversifikasiyası (əlaqələndirilməsi);

- əmək bazarına tələbatın formalaşması ilə bağlı tədris proqramlarının, təhsilin məzmununun və metodikasının yeniləşdirilməsi;
- təhsil müəssisələrinin maddi-texniki resurslarına tələbat normalarının hazırlanması; - təhsilin keyfiyyətinə, standartların icrasına nəzarət, eləcə də təhsil müəssisələrinin və ayrı-ayrı təhsil proqramlarının ekspertiza və akkreditasiya mexanizminin yaradılması;
- təhsil müəssisələrinin inkişaf strategiyası və məqsədlərinin müəyyən edilməsində, müvafiq qərarların çıxarılmasında və s. müstəqillik verən yeni idarəetmə mexanizminin yaradılması;
- təhsil sisteminin maliyyələşdirilməsinin yeni mexanizmini əks etdirən iqtisadi modelin yaradılması[7].

Azərbaycan Respublikasında məzmun islahatlarının həyata keçirilməsi sahəsində növbəti addım isə Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli, 349 saylı fərmanı ilə təsdiq edilən "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" fərman oldu [5]. "Azərbaycanda vətəndaşların təhsil hüququnu tam təmin etmək, milli təhsil konsepsiyasının müddəalarını gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizmini təkmilləşdirmək, pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını və yenidən hazırlanmasını təmin etmək, təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədi ilə" verilən bu fərman ilə ölkənin dörd aparıcı ali məktəbinə - Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Tibb Universiteti və Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına maliyyə müstəqilliyi, bir neçə ali məktəbə isə "Universitet" statusu verildi [10, s.77].

1993-2003-cü illərdə Azərbaycan Respublikasında təhsilin dünya standartlarına uyğunlaşdırılması, onun maddi-texniki bazasının və kadr potensialının günün tələblərinə cavab verməsi, təhsil sisteminin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilmiş, ümumtəhsil məktəblərinin təmir və inşa edilməsi, müasir avadanlıqlarla təchiz olunması istiqamətində dövlət büdcəsi, eləcə də beynəlxalq təşkilatların vəsaitləri hesabına müəyyən işlər görülmüşdür. Bu istiqamətdə aparılan məzmun islahatlarının genişlənirilməsi üçün Ümummilli lider Heydər Əliyevin 4 oktyabr 2002-ci il tarixli "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncamı verilmişdir. Sərəncam respublikada ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsi və onun müasir tələblərə uyğunlaşdırılması ilə bağlı əlavə tədbirlərin həyata keçirilməsinə duyulan ehtiyacdan doğmuşdur. Həmin sərəncama görə, Azərbaycan Respublikasının Nazirlər Kabineti 2003-2007-ci illər ərzində Azərbaycan Respublikasının şəhər və rayonlarında yeni məktəblərin tikintisi, mövcud ümumtəhsil məktəblərinin əsaslı təmiri, onların müasir tədris avadanlıqları ilə təmin olunmasına dair xüsusi proqramın hazırlanıb təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi qərara alınmışdır [4].

Bu illərdə təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən məzmun yeniliklərindən biri də, heç şübhəsiz, özəl təhsil müəssisələrinin yaradılması olmuşdur. Bu da ilk növbədə, ölkə vətəndaşlarının təhsil sahəsində konstitusiya hüququnun təmin edilməsi və qorunması, təhsil sisteminin sərbəst fəaliyyəti və inkişafı üçün hüquqi təminatların yaradılması prinsiplərindən irəli gəlmişdir. Qeyd edək ki, Bakıda ilk özəl ümumtəhsil məktəb kompleksi 2001-ci il sentyabrın 1-də açılmışdır. Ümummilli lider Heydər Əliyev həmin kompleksin açılışında iştirak etmişdir. Çıxışında Ulu Öndər xüsusi olaraq vurğulamışdır ki, "Özəl təhsil müəssisələrinin yaranması da Azərbaycanda yeni bir hadisədir və biz bunları dəstəkləyirik. Güman edirik ki, belə özəl təhsil müəssisələri Azərbaycan gənclərinin bir qisminin yüksək təhsil alması üçün yararlı olacaqdır" [8]. Qeyd edək ki, 2002/2003-cü tədris ilində respublikada özəl təhsil müəssisələrinin sayı 9-a çatmışdır [12, s.116].

İkinci məsələnin həlli istiqamətində ən mühüm qərarlardan biri – Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə, Nazirlər Kabinetinin 25 avqust 1994-cü il tarixli qərarı ilə respublikada ibtidai sinif dərsliklərinin dövlət hesabına nəşri və məktəblilərə pulsuz verilməyə başlaması ilə bağlı olmuşdur [13, s.10-11]. Bu məsələnin həllində növbəti addım isə – "Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları – bazis tədris planı"nın hazırlanması və Nazirlər Kabinetinin 26 aprel

1999-cu il tarixli qərarı olmuşdur [6]. Ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq ideologiyasına və milli ruha dayanan dövlət siyasəti öz əksini nəşr edilən dərsliklərin məzmununda da tapdı: müstəqil Azərbaycan Respublikasında nəşr edilməyə başlanan dərsliklər və dərs vəsaitlərində ilk dəfə obyektiv şəkildə Azərbaycan ədəbiyyatı, tarixi və mədəniyyəti şagirdlərə təqdim edilməyə başlandı. Təkcə 1995/1996-cı tədris ilində I-IV siniflər üçün 21 adda, 1996/1997-ci tədris ilində 22 adda, 1998/1999-cu tədris ilində ümumtəhsil məktəbləri üçün 24 adda ibtidai sinif dərsliyi, V-XI siniflər üçün 15 adda yeni dərslik nəşr edildi [13, s.10-11].

1993-2003-cü illər ərzində Ümummilli lider Heydər Əliyevin rəhbərliyi və şəxsi təşəbbüsü ilə Azərbaycan təhsili məzmunca və keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, milli-mənəvi dəyərlərə və Azərbaycançılıq ideologiyasına əsaslanan təhsil formalaşdırıldı, Azərbaycan gənclərinin intellektual potensialının gücləndirilməsi və bu potensialın milli dövlətçiliyin inkişafına yönəldilməsi üçün geniş imkanlar yarandı. Sonrakı mərhələdə Heydər Əliyev siyasi və dövlətçilik irsinin layiqli davamçısı Prezident İlham Əliyevin yürütdüyü dövlət strategiyası, uğurlu daxili və xarici siyasət bu təməlin nə qədər etibarlı olduğunu sübut etməklə yanaşı, Azərbaycanın gələcəyinin də təminatçısı kimi çıxış etmişdir. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan böyük Zəfər Azərbaycan gəncliyinin həm yüksək zəkasını, həm də vətənpərvərlik ruhunu bütün dünyaya bir daha tanıtmış oldu. Bu gün Azərbaycan Respublikası təkcə diplomatiyası, hüquqi dövlət quruculuğu və iqtisadi gücü ilə deyil, həm də elmi potensialı və təhsili ilə də dünyanın aparıcı dövlətlərindən biridir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2002-ci il tarixli 552 saylı Fərmanı // https://e-qanun.az/framework/2811
2. Azərbaycan Respublikası məktəblərinin təhsil standartları (layihə). Bakı, Tərəqqi, 2000 – 526 s.
3. “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı haqqında” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 iyun tarixli 168 saylı Sərəncamı // https://e-qanun.az/framework/5363
4. “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli, 506 saylı fərmanı // https://e-qanun.az/framework/3568
5. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı, Elm, 2010, 800 s.
6. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. On doqquzuncu kitab. Yanvar 1999 – Aprel 1999. Bakı, Azərnəşr, 2006, 528 s.
7. Mərdanov M. Azərbaycan təhsil tarixi. 3-cü cild. Bakı, Təhsil, 2011, 672 s.
8. Mərdanov M. Azərbaycan təhsili: yaxın keçmişə, bu günə və gələcəyə bir baxış // “525-ci qəzet”, 24 oktyabr 2009-cu il.